# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 15** **Bakı şəhəri, 27 yanvar 2021-ci il**

***"Xüsusi təhsilə cəlb olunanların valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını xüsusi təhsil müəssisəsinə, sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün müavinətin həcminin müəyyən edilməsi haqqında" Azərbaycan.Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 dekabr.tarixli 200 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Xüsusi təhsilə cəlb olunanların valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını xüsusi təhsil müəssisəsinə, sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün müavinətin həcminin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 dekabr tarixli 200 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 810; 2004, № 12, maddə 1073; 2008, № 11, maddə 1038; 2015, № 4, maddə 475; 2018, № 3, maddə 614) 1-ci və 1-1-ci hissələrində "22 (iyirmi iki)" rəqəmləri və sözləri "50 (əlli)" rəqəmləri və sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti 2021.- 30 yanvar.- S.8.